# Azər Qismət

# Sayaçı

## (Hekayə)

*- Əvvəllər Novruz bayramının gəlməsinə iki həftədən az qalmış hinlərə girib toyuqları qışqırda-qışqırda qaldırıb altlarındakı yumurtaları götürərdik. Toyuq da qalardı qaqqıldaya-qaqqıldaya. Nehrənin ağzına bənzəyən udlaqları ilə elə vay-şüvən salardılar ki, gülməkdən cırlardıq. Yumurtaların ucu şişlisini seçərdik, sonra da çəpərdən tullanıb qonşunun hininə soxulardıq. Oradan da ucu şişli yumurtaları seçərdik.*

*-Aha, maraqlıdır. Sonra?*

*-Sənə maraqlı deyil ki, niyə ucu şişliləri seçərdik?*

*- Niyə?*

*- Ona görə ki, ucu şişli yumurta o biriləri yaxşı çatladır.*

*Güldülər, sonra susdular.*

*-Geyindin-keçindin?*

*-Geyindim. Papağımı da başıma qoyum. Bax belə.*

*-İndi sənin adın Sayaçıdır.*

*-Yadımdadır.*

*-Hazırsan?*

*-Hazıram.*

*-Təkcə gedirsən?*

*-Hə, camaat adamyeyən deyil ki...*

***

O, kəndin başına şatdı. Səhər tezdən Şərqdən üfürülən duman tək-tük qaralan evləri, xoruz banlarını, inək moultularını, qoyun mələşmələrini, qulağı ağrıyan körpənin ürəkdağlayan qığıltısını, “Səhər idmanı” verilişinin gimnast aparıcısının zəhlətökən səslə “belinizi əvvəlcə sağa, sonra sola, sonra irəli” deməsini sanki bəyaz kürəyə doldururdu. Bələdiyyə sədrinin torpağı ölçmək üçün metrəni axtara-axtara deyinməsi; oğlunun taxta metrəni sındırıb torpaq çərşənbəsi tonqalına atmasını biləndən sonra qışqırması da dumanı qaçırmayacaqdı. Ayağını yerə dirəyən duman səhərin sübhündə daha da qatılaşırdı. Günəşin bircə şəfəqinə möhtac idi ki, əriyib bu sadə kəndin üstündən üzüsulu çıxıb getsin. Səslər get-gedə artırdı – yuxulu, gur, zil, fərqli boğazlar.

*O, buxara papağını gözünün üstünə basmadı, çomağıyla yuxarı itələdi, belindəki ipək parçanı tarıma çəkib təzədən düyünlədi, daha da ürəklə addımladı. Adamlar sevinəcəklər, deyəcəklər “18 yaşın var, adət-ənənəmizi bərpa edirsən, qoymursan xalqın yaddaşından silinsin. Oğulsan. Ananın südü, atanın öyüd-nəsihəti sənə halal olsun. Gör e, belə adətimiz də olub, babalarımız bərabərlik yaradıblar”. “Əşi, cəhənnəm olsun adət-ənənə də, elə sən də” deyənlər də ola bilərdi, çünki bəzi evlərin Niderlanddakı təki şüşədən olması - keçmiş adətin bərpa olunma sevincini yarıda qoyardı. Rusiyadan gələn ticarətçi həmyerliləri deyirdilər ki, gildən və palçıqdan tikilən evlər çoxdan dəbdən düşüb. Boyun-boğazlarında az qala yarım kiloluq zəncirbəndlə gəzən bəzi ticarətçilərin idman paltarı və krossovka ilə kəndin ortasında lovğa-lovğa gəzib yarırus, yarıazərbaycanca özlərini yüksək cəmiyyətin şəxsləri kimi aparmaları, “Sayaçı” adətinin bu kəndə gətirilməsini əngəlləyə bilərdi. Kənddə bir həftə qalıb qarşılarına çıxana “derevnya” deyənlər, sayaçını yaş yuyub quru sərərdilər.*

Kənd neçə yüz ilin kəndi olduğundan kurqan qəbirlər, açıq səma altında saxlanan saxsı qablar az deyildi; hələ qədimi cıncıq-muncuqlar qız uşaqlarının evcik-evcik oyununda adi əşyaya dönmüşdü və cavan oğlan məhz bu kəndi seçməkdə bəlkə də səhv etməmişdi. Həm də onun dağlar qoynunda yerləşməsi qədim adətin bərpasına şövqlü tamaşa statusu qazandıracaqdı.

Kənd ayılırdı; bunu evlərdən gələn səslərin ucalması da nümayiş etdirirdi. Cavan sayaçı bir az gözləməyi düşündü. Vaxtın keçməsi üçün iri daşın üstündə oturub papağını çomağında yellədi. Hərgah gec də olmazdı, çünki duman çəkilər-çəkilməz inəklər naxıra, qoyunlar otlaqlara aparılacaqdı. Onsuz da torpaq təzə oyandığından yaşıl otlar pırtlayıb çıxa-çıxda idi; qışın qurtarmasını həsrətlə gözləyən qoyun sürülərinin sahibləri yaşıl otun acına dönmüşdülər, qoyunlarının ətini dada-tama gətirtmək üçün heç axşamlar da gətirib tövləyə salmazdılar.

Papağın çomaqda yellənməsi, yerdəki iki-üç daşın götürülüb ovucdan-ovuca atılması ilə əvəzləndi. “Vaxtdır” deyib papağını gözünün üstünə basdı, belindəki ipək parça boşaldığından yenidən dartıb bərkitdi, üst-başını çırpıb gülümsədi, sağ tərəfdəki birinci qapını döyməzdən əvvəl bir az qulaq asdı ki, xoş səslər eşitsin.

Taq, taq, taq.

Qapıya 55-60 yaşlarında kişi çıxdı.

-Sabahınız xeyir.

-Aqibətin xeyir.



-Novruz bayramınız mübarək olsun. Tanrı sizi həmişə bayramlarla əhatə etsin.

-Sağ ol, səninlə bahəm. Sən Rzadan pul gətirən oğlansan?

-Nə pul? Xəbərim yoxdur.

-Rza dedi ki, dədə, bayrama görə 200 dollar göndərirəm, bir oğlan qapıya gətirəcək.

-Yox, pul gətirməmişəm.

-Onda sən kimsən?

-Sayaçı.

-Sayaçı nədir?

-Nədir yox, kimdir.

-İşə düşdük də.

Cavan oğlan papağını alnına itələyib daha da gülümsədi. Nəhayət, indi bu kişi qədim adətimizi biləndə zəhrimar sifətinə gülüş qonduracaq. Deyəcək ki, “oğlumun pulu başına dəysin, onsuz da əməlli-başlı pul göndərmir, elə qonşusu pozgun Tanyaya xərcləyir”. O Tanya ki, evin divarına donuz şəkli çəkməklə oğlumuza cadu edib ki, tifilimiz Azərbaycana qayıtmasın; desin ki, “Vətənim Rusiyadır”, Tanya isə həm anam, həm məşuqəm, həm də arvadım”. Cavan oğlan qəlbinin dərinliklərində çoxdan kök salan ən mübhəm və kövrək səs tellərini işə salıb şövqlə dedi:

-Azərbaycanın qədim adətinə görə sayaçı Novruz bayramında kəndlərə yollanarmış. Kəndin başından girib ayağından çıxarmış. Birinin 2 qoyunu varsa, onun birini olmayana verərmiş. Kimin üç inəyi varsa onun ikisini kasıblar arasında bölərmiş ki, ayrı-seçkilik olmasın, bərabərlik yaransın. Bərabərlik yaradandan sonra oradan uzaqlaşarmış. Sonra başqa kəndlərə də baş çəkər, varlı-kasıb söhbətinə son qoyarmış.

-Necə, necə? Bərabərlik yaradarmış? Sən Kommunist Partiyasından gəlmisən? Yenə parlament seçkilərinə səs yığırsız? Bu da təzə oyundur?

-Dayı, vallah heç bir partiyanın üzvü deyiləm. Sadəcə istəyirəm qədim adətimizi bərpa edim.

-Bəlkə rayon mədəniyyət evinin artistisən? Torbanı ver qoz-fındıq doldurum.

-Nə torba? Gəlmişəm ki, bərabərlik yaradım.

-Sən Markssan, Leninsən, kimsən ki, bərabərlik yaradırsan?

-Sözümü tutmadız e. Mən sayaçıyam, bu da bizim qədim adət-ənənəmiz olub. İndi zəhmət olmasa qoyununuzdan birini verin aparım kasıba. Bu bayram günü o da sevinsin.

*-İndi səni söyəcəm, deyəssən ki, bayram günü söydü-buladı, döyəcəm, gedib üstümə adam gətirəssən.*

*-Axı niyə belə deyirsiz?! Adətlərimizi unuda-unuda gedirik, elə ona görə də bilinmir şərqliyik, ya qərbli.*

*Arxadan qadın səsi eşidildi:*

*-Əbülfəz, kimdi o? Rzadan pul gətirib?*

*-Aaaz, yox e, sayaçı gəlib.*

*-Sayaçı? – deyə qadın onlara yaxınlaşdı:*

*-Haranı sayırlar? Yenə torpağı özəlləşdirirlər?*

*-Özəlləşmə qurtardı getdi də...yenə nə qaldı, nəyi də özəlləşdirsinlər?! Bu adam səhərin gözü açılmamış gəlib ki, bəs, mən adamları infarkt edənəm, indi sən Əbülfəzin ürəyini partladacam.*

*Cavan oğlanın yanağı pörtdü. Əbülfəz davam etdi.*

-Bu adam deyir ki, qoyunumuzdan birini hansısa qonşuya verək.

Arvad təəccüblə:

-Bıy, başıma xeyir, özümüz yeyə bilmirik? Bəlkə qonşunun ağzı var, bizimki yoxdur? Bala, başına dönüm, necə gəlmisən elə də get. Yəqin səni o ipləmə Həsən göndərib. Bilirsən hansı Həsən? Uşaqlar başına çırtma vurur.

Sayaçı arxaya çəkilib təəccüblə onlara baxdı. Sonra ciddiləşib papağını gözünün üstünə itələdi:

-Qoyun vermirsiz? Onda tarix qarşısında cavab verəcəksiz. Siz xalqın adətinin bərpasını istəmədiz.

*Ağsaqqal tutulub durdu. Bir yandan oğlu Rzadan pulun gəlməməsi, bir yandan bu bərabərlik söhbəti, o biri yandan səhərdən çay içməməsi, qanını lap qaraltmışdı.*

*-Tarix qarşısında cavab verəcəm? Getsinlər sənin Bakında oturub avropalaşanlar tarix qarşısında cavab versinlər. Toylarda Men...Men...azzz, nə idi onun adı? Toyda çalırlar e, bəylə-gəlin qollarını ilan kimi bir-birinə dolayıb rumkanı başlarına çəkirlər?!*

*-Şampan?*

*-Yox bir tutovka.*

*-Dayı, onun adı Mendelson marşıdır.*

*-Hə, o Mendelson. Vağzalı yaddan çıxıb, qəbir üstündə kontrabas çalırlar.*

-Deməli, qoyununuzdan birini qonşuya vermirsiz, eləmi? Onda gedim üzbəüz qapıya.

-Üzbəüz qapıda qalan bicbaladır. Ondan çətin nəsə alasan.

Oğlan qanıqara halda üzbəüz qapını döydü. Darvaza həyətdəki evdən uzaq olduğundan başını içəri salıb qışqırdı:

-Sayaçı gəlib, sayaçı, qarşılayın.

Həyətdə oynayan 10-12 yaşlı uşaq qaçıb babasını çağırdı. Balacaboy bir kişi artırmaya çıxıb əlini gözünün üstünə qoyub qonağa baxdı, sonra pencəyini çiyninə salıb qapıya gəldi.

-Salam dayı.

-Salam. Xeyir ola?

-Novruz bayramınız mübarək.

-Sənin də. Xeyir ola? Torpaq idarəsindən gəlmisən? Axı demişdim ki, bizim ailədə hər adama 6 sotdan sərf eləmir.

-Bunları mənə niyə deyirsiz?

-Torpaq idarəsindən gəlməmisənsə, onda sən kimsən?

-Mən sayaçıyam.

-Pul sayansan?

-Xalqımızın qədim adətinə görə sayaçılar Novruz bayramında kəndlərə gedər, iki qoyunu olandan birini alarmışlar, inəkləri kasıblar arasında paylayarmışlar. Bununla da, bərabərlik yaradıb kənddən çıxarmışlar.

-Həəə, nə yaxşı, nə yaxşı. Afərin bala. Allah, dədənə rəhmət eləsin.

-Dədəm sağdır.

-Hə, nə olar, afərin elə dədəyə ki, sənin kimisini böyüdüb səhərin gözü açılmamış üstümüzə göndərib. Xoşum gəldi, bu da fırıldağın təzə növüdür?

-Siz nə danışırsız?

-Əşi, day mənə yox də, bilirəm, dələduzluqla məşğul olursan, bu da təzə oyundur. Bu cavan yaşında şeytana papış tikmək istəyirsən?

-Bu dəqiqə üzr istəyin.

-Sən gəl belə et. Mənə bir yox, iki qoyun gətirərsən, biri mənim, birini də kəsib kabab edərik, budunu da verərəm apararsan dədənə. Nə qədər olmasa da, ideya o kişinindir axı. Niyə belə baxırsan? Yaxşı, başı ilə içalatı da sənin olsun. Razılaşdıq?

-Bəsdirin. Mən sayaçıyam, xalqın qədim adətini yaşatmağa gəlmişəm.

-Qulaq as, mən vaxtilə kolxozun baş mühasibi olmuşam. Hər künc-bucağı yaxşı tanımışam, hər adamın cikini-bikini bilmişəm. Konkret de, razısan, ya yox? Qoyundan sənə də verim, apar evinizə, anan qovurma bişirsin.

-Buna razı ola bilmərəm. Atam həmişə deyib ki, namusla yaşa, heç kimi aldatma.

-Onda, uçdun, - deyə kişi qapını arxadan bağlayıb uzaqlaşdı. Gedə-gedə səsi gəlirdi: -Görüm hansı əfəl sənə malını verəcək. Ölmüşdü Xankişi.

Sayaçı üçüncü qapıya getdi. Qapı ağzında oturan, yaşı bəlkə də 100-ü keçən ağsaqqalı görüb sevindi. Düşündü ki, “nəhayət, məni bu qoca anlayar”.

-Ağsaqqal, sabahın xeyir.

-Pis eşidirəm, sağ qulağıma tərəf gəl. Sol eşitmir.

Oğlan qocanın sağ qulağı tərəfə əyildi:

-Ağsaqqal, mən sayaçıyam.

-Adın belədir? – deyə qoca xırıldadı, elə bil canını tapşıracaqdı.

-Mən sayaçıyam. Kimin iki qoyunu varsa birini olmayana verirəm, kimin üç inəyi varsa ikisini alıb kasıbların arasında paylayıram. Bərabərlik yaradanam.

Qoca dik atıldı, elə bil indicə canını tapşıranın biri deyildi. Tez özünü həyətə atıb əsən əllərilə qapını arxadan bağlayıb, “ay Sənəm, ay Sənəm” deyə-deyə pilləkənlərlə yuxarı qalxdı. Arvadı çıxdı:

-Noolub?

-Bolşevik gəlib. Uşaq olanda da gəlib nəyimiz var əlimizdən aldılar ki, varlı-kasıb olmayacaq. Qaç, qoyunları bas samanın altına.

Sayaçı papağını başından üzüaşağı sürüşdürüb kəndin başına qədər ağır-ağır irəlilədi. Daha deyəcəyi sözü qalmamışdı. Kənd uşaqları dalınca düşüb gülüşürdülər. O da qanrılıb uşaqlara baxır, dinmirdi. Qədim adətin bərpasını bacarmamışdı. Biri ondan qoyun istəmişdi, o biri qoyunlarını saman altında gizlətmişdi.

Sayaçı kəndin qapısına çatanda 45-46 yaşlı bir kişinin zəhmli baxışlarına dözə bilməyib gözlərini yayındırdı. Zəhmli kişi çömbəlib siqaret çəkir, oğlanın üst-başına baxırdı.

-Sənin xətrinə kim dəyib? Kimsən?

-Mən sayaçıyam. Novruz bayramında bərabərlik yaradıram.

-Biz də həbsxanada bərabərlik yaradardıq. Böyük ədalət elə həbsxanadadır. Gözlərindən oxuyuram ki, yarada bilməmisən o bərabərliyi. Düş qabağıma.

Zəhmli kişi arxada, sayaçı da qabaqda kəndin mərkəzinə doğru addımladılar. Zəhmli kişi səsinin gur yerinə salıb bağırdı.

-Hamı bura yığılsın!

Onun haraylamasından sonra yağlanmayan qapılar cırıldadı, yağlananlar səssizcə açıldı. Əvvəli beş-altı nəfərlə başlanan toplantı, bir azdan otuz-otuz beş nəfərə çatdı.

-Bu oğlan kəndə gəlib ki, bərabərlik yaratsın. Allah hamımızı bərabər yaradan kimi mallarımız da bərabər bölünməlidir. Yalnız bu gün. Bunu fikirləşən aqsaqqalar yəqin ağılsız olmayıblar. Siz təkcə bircə gün bu bayramın xatirinə bərabərlik yarada bilməzsiz?

*Adamlar yığalandılar. Biri qabağa çıxıb qışqırdı:*

*-Mənim 5 qoyunum var. Onun birini kəndin aşağısında yaşayan Bəhruza verirəm. Kasıb adamdır.*

*O biri yerindən qışqırdı:*

*-Mən də həyətimdəki toyuğun ikisini üzbəüz qalan ağbirçəyə verirəm, qoy kəsib bu bayram günü canıma dua eləsin.*

*Adamlar gülüşdülər. Arxadakı 35-36 yaşlarındakı cavan oğlansa qışqırdı:*

*-Mən də inəyimin birini dul arvada verirəm. Amma bir şərtlə. İnəyin südünü hər gün yarı böləcəyik.*

*Adamlar daha da hündürdən gülüşdülər. Uzaqdan bir uşağın keçinin ipini çəkə-çəkə təngnəfəs gətirməsinə baxıb gözlədilər ki, görəsən o nə deyəcək. Uşaq alnının tərini dirsəyinə silib cır səslə qışqırdı:*

*-Mən də keçimi sinif yoldaşım olan qıza verirəm. O da uzunboğazlı xoruzunu mənə versin.*

*Məktəblinin sözü adamları lap güldürdü. Onlardan biri sayaçının qolundan tutub aralarına qatdı. Kəndlilər söz verdiklərini etdilər. Sonra cavan uşaqlar meşəyə qaçıb uzun-uzun ağaclar gətirib kəndin ortasında tonqal qaladılar. Və beləcə ağrılıqlarını, uğurluqlarını o tonqalda yandırdılar. Sayaçıya isə pay-parça verib evlərinə yola saldılar.*

***O, kəndin başına şatdı. Səhər tezdən Şərqdən üfürülən duman tək-tük qaralan evləri, xoruz banlarını, inək moultularını, qoyun mələşmələrini, qulağı ağrıyan körpənin ürəkdağlayan qığıltısını, “Səhər idmanı” verilişinin gimnast aparıcısının zəhlətökən səslə “belinizi əvvəlcə sağa, sonra sola, sonra irəli” deməsini sanki bəyaz kürəyə doldururdu. Bələdiyyə sədrinin torpağı ölçmək üçün metrəni axtara-axtara deyinməsi; oğlunun taxta metrəni sındırıb torpaq çərşənbəsi tonqalına atmasını biləndən sonra qışqırması da dumanı qaçırmayacaqdı. Ayağını yerə dirəyən duman səhərin sübhündə daha da qatılaşırdı. Günəşin bircə şəfəqinə möhtac idi ki, əriyib bu sadə kəndin üstündən üzüsulu çıxıb getsin. Səslər get-gedə artırdı – yuxulu, gur, zil, fərqli boğazlar...***

**Səhifəni hazırladı: Tural Turan**